<"xml encoding="UTF-8?>

# ƏŞ-ŞUƏRA SURƏSI

.Bağışlayan və mehriban Allahın adı ilə .0

Ta, Sin, Mim. (Bu hərflər Allahla Onun Rəsulu arasında olan rəmzlərdir. Bu kitab həmin bu .1
hərflərdən təşkil olunmuşdur. Amma heç kimin onun bənzərini gətirməyə qüdrəti yoxdur. Bu
kitabın möhkəm ayələri və bu cür də mütəşabih ayələri vardır. And olsun Turi-Sinaya, Məkkəyə,
(,and olsun Tuba və Sidr (ağaclarına) və Muhəmmədə (s) ki

.Bu surə aşkar və aydınlıq gətirən kitabın ayələridir .2

!?Ya Peyğəmbər!) Bəlkə sən onlar iman gətirməyəcəklər deyə, özünü həlak etmək istəyirsən) .3

Əgər istəsək göydən onlara elə bir nişanə (məcburedici dəlil, ya xaredici bir əzab) nazil edərik .4
.ki, onun müqabilində onlar (məcburi şəkildə) boyun əyib itaət edərlər

Onlara Rəhman (olan Allah)-dan elə bir yeni öyüd-nəsihət vasitəsi (surə, moizə, möcüzə) .5
.gəlməz ki, ondan üz döndərməsinlər

Beləliklə, həqiqətən, onlar (Bizim ayələrimizi) təkzib etdilər. Odur ki, istehza etdikləri şeyin .6
.(xəbərləri tezliklə onlara yetişəcəkdir (verilən vədləri Bərzəxdə, ya Qiyamətdə başa düşəcəklər

Bu qədər israrla təkzib etdikləri halda) məgər yer üzünə baxıb orada nə qədər növbənöv) .7
?könül oxşayan (bitkilər və ağaclar) bitirdiyimizi görmədilərmi

Həqiqətən, bunda (Bizim tovhidimiz, qüdrətimiz və rəhmətimizə dair) bir əlamət vardır. .8
Amma onların əksəriyyəti (fitrətlərinin çirkinliyi ucbatından) iman gətirməmişlər və (bundan
.sonra da) iman gətirməyəcəklər

Həqiqətən, sənin Rəbbin (intiqam alma və cəza vermə baxımından) yenilməz qüdrət və .9
.(möhlət vermə baxımından) mərhəmət sahibidir

Və (Ya Peyğəmbər! Yada sal), bir zaman Rəbbin Musanı səslədi ki: «Get o, zalım tayfanın .10

;sorağına

«!?Firon qövmünün sorağına (çox təəccüblüdür), məgər qorxmurlar .11

.«Musa) dedi: «Ey Rəbbim, doğrusu qorxuram ki, məni təkzib etsinlər) .12

Sinəm daralır (sıxılır) və (danışarkən) dilim tutulur. Odur ki, (vəhy mələyini) Haruna göndər» .13
.«((onu mənə köməkçi et

Onlarla bağlı boynumda bir günah var (onlardan bir nəfəri öldürmüşəm). Buna görə də» .14
.«(risaləti yerinə yetirməzdən öncə) məni öldürəcəklərindən qorxuram

Allah) buyurdu: «Belə deyil. Siz ikiniz də Bizim ayələrimizi aparın. Şübhəsiz, Biz sizinlə) .15
.«!birgə (Fironun adamlarının nə dediklərini) eşidəcəyik

Fironun yanına gedərək deyin: «Həqiqətən, biz aləmlərin Rəbbinin göndərdiyi» .16
.«peyğəmbərlərik

.«Belə deyin) İsrail övladlarını bizimlə (Şama – öz ana vətənimizə) göndər)» .17

Firon dedi: «Məgər biz səni uşaqlıq çağında öz yanımızda böyütmədikmi? Ömrünün neçə .18
«?ilini bizim yanımızda qalmadınmı

Sən (bizim nemətlərimizə) nankorlardan olduğun halda, elədiyin o işi də elədin (bir kişini .19
«!(öldürdün

Musa) dedi: «O işi o vaxt edərkən mən xəbərsizlərdən idim (xəbərsiz idim ki, bir zərbə bir) .20
.«(kəsin ölümünə səbəb ola bilər

Buna görə də, sizdən qorxub qaçdım, sonra Rəbbim mənə peyğəmbərlik, hikmət və şəriət» .21
.«elmi əta etdi, məni Öz peyğəmbərlərindən etdi

Məgər İsrail övladlarını kölə etməyin bir nemətdirmi ki, onu mənə minnət qoyursan» .22
«!?((halbuki, mən də onlardan biri kimi sənin əsarətində idim

«?Firon dedi: «Aləmlərin Rəbbi nədir .23

Musa) dedi: «O, göyləri, yeri və onların arasında olanları idarə və tərbiyə edəndir, əgər) .24
yəqinlik əhli olsanız, (gözəl şəkildə idarə və tərbiyə olunmalarından, onları idarə və tərbiyə
.«(edənin varlığını dərk edə bilərsiniz

Firon öz ətrafındakılara dedi: «(Onun sözlərinə) qulaq asırsınızmı?! (O, necə də mənim .25
sualımı olduğu kimi təkrarlayır. Mən ondan Rəbbin mahiyyətini soruşuram, Musa isə mənə
«!?(Onun işləri haqqında cavab verir

.«Musa) dedi: «O sizin də, ulu babalarınızın da Rəbbidir) .26

Firon dedi: «Həqiqətən, sizə göndərilmiş olan bu peyğəmbər, şübhəsiz, divanədir (mən bir .27
«!(şey soruşuram, o isə başqa şeydən danışır

Musa dedi: (O,) «Şərqin və qərbin (günəşin doğduğu və qürub etdiyi bütün planetlərin çıxma .28
.«?və batma yerinin) və bu ikisinin arasında olan hər bir şeyin Rəbbidir, əgər düşünsəniz

Firon dedi: «Şübhəsiz, əgər məndən savayı bir tanrı qəbul etsən, mütləq səni həbs .29
.«etdirəcəyəm

Musa dedi: «Hətta sənə açıq-aydın bir şey (iddianın doğruluğunu sübut edəcək aydın və .30
«!?aşkar bir möcüzə) gətirsəm də

.«(Dedi: «Əgər düz danışanlardansansa onu gətir (görüm .31

Beləliklə, Musa öz əsasını atan kimi (əsa), qəfildən açıq-aşkar bir əjdaha oldu. (Onun .32
.(əjdaha olduğu tam aydın görünürdü

Və əlini (qoynunun altından) çıxardanda, o, baxanlara qəflətən (gözqamaşdırıcı) ağappaq və .33
.nurlu göründü

«!Firon ətrafındakı əyanlara dedi: «Həqiqətən, bu, çox bilikli bir sehrbazdır .34

«?Sizi öz sehri ilə torpağınızdan çıxarmaq istəyir. Fikriniz nədir» .35

.Dedilər: «Onun və qardaşının işini təxirə sal və şəhərlərə toplayıcı məmurlar göndər .36

.«Bütün bilikli sehrbazları sənin yanına gətirsinlər .37

Beləliklə, bütün sehrbazlar məlum bir günün müəyyən olunmuş vaxtında (bayram günündə) .38
.toplandılar

Camaata (onları dəvət edib sehrbazlara tabe etmək məqsədilə) deyildi: «Siz də .39
«?yığışacaqsınızmı

Əgər sehrbazlar qalib gəlsələr, biz də onlara tabe olaq (Fironun tanrılığına və dininə itaət» .40
.«(etməyə davam edərik

«!?Sehrbazlar gəldikdə Firona dedilər: «Əgər qalib gəlsək, bizim üçün bir mükafat olacaqmı .41

Firon) dedi: «Bəli! Və belə olan surətdə mütləq (bizim dərgahımıza) yaxın adamlardan) .42
.«olacaqsınız

.«Musa onlara dedi: «Nə atacaqsınızsa atın .43

Onlar öz iplərini və əsalarını yerə atdılar. (Firona və öz düzəltdikləri ilan kimi qıvrılan .44
əşyalara çox güvənərək) dedilər: «Fironun izzətinə (və cəlalına) and olsun ki, mütləq biz qalib
.«gələcəyik

Belə olduqda Musa (da) öz əsasını atdı. O, onların düzəltdikləri (və nümayiş etdirdikləri) .45
.həqiqi olmayan şeyləri qəfildən uddu

Sehrbazlar (işin əzəmətindən və Haqqın qüdrətindən, naçar) səcdə halında torpağa .46
.qapandılar

.Dedilər: «İman gətirdik aləmlərin Rəbbinə .47

.«Musanın və Harunun Rəbbinə .48

Firon dedi: «Mən sizə izn verməzdən öncəmi ona iman gətirdiniz?! Şübhəsiz ki, o sizə sehr .49
öyrətmiş olan böyüyünüzdür (sizin bu mübarizəniz süni idi). Belə isə tezliklə bilərsiniz! Mütləq
sizin əllərinizi və ayaqlarınızı bir-birlərinə çarpaz (birini sağdan və birini soldan) kəsdirib sizi
.«hamılıqla dar ağacından asacağam

Dedilər: «(Bizə) heç bir zərəri yoxdur, çünki biz öz Rəbbimizə doğru dönəcəyik (və O hər şeyi .50
.«(yoluna qoyar

Həqiqətən, biz umuruq ki, Rəbbimiz – ilk iman gətirənlər olduğumuza görə günahlarımızı» .51
.«bağışlasın

Musaya belə vəhy etdik: «Mənim bəndələrimi gecə vaxtı çıxart, çünki siz təqib ediləcəksiniz .52
(bununla da sizin qurtuluşunuzun və Fironun adamlarının həlakının müqəddiməsi
.«(hazırlanacaqdır

Firon (İsrail övladlarının qaçmasından xəbərdar olduqdan sonra) şəhərlərə qüvvələr .53
.(göndərdi (ki, ordu toplasınlar

.«O belə deyirdi): «Həqiqətən, bunlar kiçik bir dəstədir) .54

.Və əlbəttə, bunlar bizi (dəfələrlə itaətsizliklərinə görə) qəzəbləndirmişlər .55

.Şübhəsiz, biz ayıq-sayıq və hazırlıqlı bir dəstəyik .56

,Beləliklə, (Biz) onları bağlardan və bulaqlardan .57

.Nemət) xəzinələr(in)dən, gözəl və dəyərli yerlərdən çıxartdıq) .58

Bizim qüdrət və hikmətimiz) belə idi (belə tələb edirdi) və onların hamısını İsrail övladlarına) .59
.irs olaraq verdik

.Beləliklə (Fironun adamları) günəş doğduqda onların arxasınca getdilər .60

O iki dəstə bir-birlərini gördükdə, Musanın (adamları) dedilər: «Şübhəsiz, biz artıq .61
.«yaxalanmaqdayıq

Musa dedi: «Belə deyildir, şübhəsiz, Rəbbim mənimlədir, tezliklə mənə (nicat yolunu) .62
.«göstərəcəkdir

Sonra Musaya vəhy etdik ki: «Öz əsanla dənizə vur». Dəniz (əsanın vurulmasıyla on iki .63
.yerdən yol kimi) bölündü və (iki yolun arasında olan) hər bir hissə böyük bir dağ kimi oldu

.O biri dəstəni də (Fironun adamlarını) oraya yaxınlaşdırdıq .64

.Musaya və onunla birgə olanların hamısına nicat verdik .65

.Sonra o biri dəstəni (suda) qərq etdik .66

Həqiqətən, də bunda (bu hekayətdə Allahın tovhidi, qüdrəti, qəzəbi və rəhmətinə dair) bir .67
.nişanə (ibrət) vardır. Onların (müşriklərin) əksəriyyəti haqqa iman gətirən deyildilər

Ya Peyğəmbər!) həqiqətən, sənin Rəbbin (tüğyan edənlərin müqabilində) qüdrətli və qalib,) .68
.(itaətkarlara qarşı) mehribandır

.Və onlara (müşriklərə) İbrahimin xəbərini və hekayətini söylə .69

«?O zaman o, atasına və öz tayfasına demişdi: «Siz nəyə ibadət edirsiniz .70

Onlar) Dedilər: «Biz bütlərə ibadət edirik və daima onlarla birgəyik, onların dərgahlarına) .71
.«başımızı qoyuruq

İbrahim) dedi: «(Onları) Çağırdığınız zaman səsinizi eşidirlərmi (və istəyinizi yerinə) .72
«?(yetirirlərmi

«?Yaxud sizə bir xeyir və ya zərər verirlərmi» .73

.«Dedilər: «(Yox), ancaq atalarımızın belə etdiklərini görmüşük .74

?İbrahim) dedi: «Nəyə ibadət etdiyinizi görürsünüzmü) .75

«?Sizlər və ulu babalarınız .76

Şübhəsiz, aləmlərin Rəbbindən başqa onların hamısı mənim düşmənimdirlər (çünki onlar,» .77
.«(özlərinə ibadət edənləri cəhənnəmlik edənlərdir, aləmlərin Rəbbi isə belə deyildir

.«Məni yaradan və daim (məişət və axirət işlərimdə) mənə doğru yol göstərən Odur» .78

.«Məni yedirdən də içirdən də Odur» .79

.«Xəstələndikdə mənə şəfa verən də Odur» .80

.«Məni öldürəcək, sonra dirildəcək Odur » .81

.«Cəza günü günahımı bağışlamasına ümid etdyim də Odur» .82

.«Ey Rəbbim, mənə əqli, dini elmlər bəxş et və məni salehlərə qovuşdur» .83

Mənə gələcək nəsillər arasında gözəl bir ad, xatirə, doğru danışan bir dil və (mənə) haqqa» .84
.«doğru bir dəvət edən ver

.«Məni nemətlərlə dolu olan Cənnətin varislərindən et» .85

Atamı bağışla! O, azanlardan oldu. (Azər İbrahimin qayınatası və ya əmisi idi, atası Tarox» .86
(.isə Allahın təkliyinə inananlardan idi

«Məni (insanların) dirildiləcəyi gün xar etmə» .87

.«O gün ki, malın və oğulların bir faydası olmayacaq» .88

Yalnız (fəsadlı əqidələrdən və əxlaqdan) salamat (sağlam) bir qəlblə Allahın hüzuruna» .89
.«!gələn kimsədən başqa

.O gün) Cənnət təqvalılara yaxınlaşdırılar) .90

.Cəhənnəm də azğınlara aşkar olar .91

,Və onlara deyilər: «İbadət etdikləriniz haradadır .92

Allahın əvəzinə (ibadət etdikləriniz)?! Sizə kömək edirlərmi, yaxud əzabı özlərindən dəf edə .93
«!?bilirlərmi

.Beləliklə, (ibadət etdikləri) o tanrılar və azğınlar bir-birinin ardınca, üzü üstə atılarlar .94

İblisin bütün əsgərləri də (daim onun itaətində olan müşrik, kafir və fasiqlər, İblisin özünün .95
.(nəsli və balaları da oda sürüklənərlər

:Onlar (Cəhənnəm əhli) bir-birlərilə dava-dalaş edən halda (öz tanrılarına) deyərlər .96

.«Allaha and olsun ki, biz həqiqətən, açıq-aşkar yolumuzu azmışdıq» .97

.«Çünki sizi aləmlərin Rəbbi ilə bərabər tuturduq» .98

.«Bizi yalnız günahkarlar (fəsad törədən alimlər, zalım hakimlər və azğın dostlar) azdırdılar» .99

,İndi, (bu gün) bizim nə bir şəfaət edənimiz» .100

.«nə də mehriban və səmimi bir dostumuz var .101

.«Kaş biz bir də (dünyaya) qayıda biləydik ki, möminlərdən olaydıq» .102

Həqiqətən, də, bunda (bu hekayətdə Allahın qüdrəti, qəzəbi və rəhmətinə dair) bir nişanə .103
.(ibrət) vardır. Halbuki onların əksəriyyəti haqqa iman gətirənlərdən deyildilər

Həqiqətən, sənin Rəbbin (tüğyan edənlərin müqabilində) qüdrətli və yenilməzdir, .104
.(itaətkarlara qarşı) mehribandır

Nuhun qövmü Allahın bütün peyğəmbərlərini təkzib etdi.(Onların bəzisini təkzib etmək .105
(.hamısını təkzib etmək deməkdir. Yaxud da onlar risalətin özünü inkar etdilər

O zaman (qəbilə) qardaşları olan Nuh onlara dedi: «Məgər (Allahın qəzəb və əzabından) .106
«?çəkinmirsiniz

.«Həqiqətən, mən sizin üçün etibar olunası bir peyğəmbərəm» .107

.«Allahdan qorxun və mənə itaət edin» .108

Mən buna (risalətə) görə sizdən heç bir muzd istəmirəm. Mənim muzdum yalnız» .109
«.aləmlərin Rəbbinin öhdəsinədir

.«Belə isə, Allahdan qorxun və mənə itaət edin» .110

«?Dedilər: «Sənə ən rəzil adamlar tabe olduğu halda biz sənəmi iman gətirək .111

!?Dedi: «Onların nə etmiş olduqlarından və nə etdiklərindən mənim nə xəbərim var axı .112

.«Əgər düşünsəniz onların hesabı yalnız mənim Rəbbimin öhdəsinədir .113

.«Və mən əsla möminləri qovan deyiləm» .114

.«(Mən yalnız açıq – aşkar qorxudanam (bir Peyğəmbərəm» .115

Dedilər: «Ey Nuh, əgər (bu dəvətdən) əl çəkməsən, mütləq daşqalaq olunanlardan .116
.«olacaqsan

.«Dedi: «Ey Rəbbim, həqiqətən, qövmüm məni təkzib etdi .117

Odur ki, mənimlə onların arasında aydınlaşdıran bir hökm çıxar, mənə və mənimlə birgə» .118
.«olanlara nicat ver

Beləliklə onu və onunla birlikdə (insanlar, heyvanlar və azuqə ilə) dolu olan gəmidəkiləri .119
.xilas etdik

.Onların nicatından sonra qalanların hamısını (suda) qərq etdik .120

Həqiqətən, də, bunda (bu hekayətdə Allahın qüdrət və qəzəbinə dair) bir nişanə (ibrət) .121
.vardır və onların əksəriyyəti Haqqa iman gətirən deyildilər

Həqiqətən, sənin Rəbbin (tüğyankarlara qarşı) qüdrətli və qalib, (itaətkarlara qarşı) .122
.mehribandır

.Ad qövmü də (Hud qövmü) Allahın peyğəmbərlərini təkzib etdi .123

«!?O zaman (qəbilə) qardaşları Hud onlara dedi: «Məgər (şirk və küfrdən) çəkinmirsiniz .124

.«Həqiqətən, mən sizin üçün etibar olunası bir peyğəmbərəm» .125

.«Belə isə, Allahdan qorxun və mənə itaət edin» .126

Mən buna (risalətə) görə sizdən heç bir muzd istəmirəm, mənim muzdum yalnız» .127
«.aləmlərin Rəbbinin öhdəsinədir

Siz) hər bir uca məkanda əbəs yerə və əyləncə xatirinə bir bina ucaldıb var-dövlət)» .128
«?nişanəsimi edirsiniz

«!?Cah–cəlallı qəsrlər (və su hövzələri və hovuzlar) tikirsiniz, sanki əbədi qalacaqsınız» .129

.«Və (birini) yaxaladıqda (ona) zülmkarcasına cəza verirsiniz» .130

.«Belə isə, Allahdan qorxun və mənə itaət edin» .131

.«Qorxun o kəsdən ki, bildiyiniz şeylərlə sizə kömək etdi» .132

;«Sizə heyvanlar və oğullar (əta etməklə) kömək etdi» .133

.«(Həmçinin bağlar və bulaqlarla (kömək etdi» .134

.«Həqiqətən, mən Böyük Günün sizə (çatacaq) əzabından qorxuram» .135

.«Dedilər: «Nəsihət etsən də,öyüd verənlərdən olmasan da bizim üçün birdir .136

Bu, (Allaha və axirətə dəvət) keçmişdə nübuvvət iddiası edənlərin adətindən başqa bir şey» .137
deyildir. (Biz onu qəbul etmədik.) (Yaxud bütlərə və ulduzlara ibadət etməyimiz bizim keçmiş
ata–babalarımızın adətindən başqa bir şey deyildir və biz bunu qəbul etmişik. Və ya bizim bu
yaşayış və ölümümüz bəşərin əzəldən bəri olan yaşayış və ölümündən başqa bir şey deyildir.
.«(Odur ki, dirilmək və hesab – kitab adlı bir şey olmayacaqdır

.«Bəs, axirət aləmi olmadığı üçün) bizə əsla əzab verilməyəcəkdir)» .138

Beləliklə onu (Hudu) təkzib etdilər və Biz də onları həlak etdik. Həqiqətən, bunda (bu .139
hekayətdə Allahın qüdrət və qəzəbinə dair) bir nişanə (ibrət) vardır və onların əksəriyyəti haqqa

.iman gətirənlərdən deyildilər

Həqiqətən, sənin Rəbbin (tüğyan edənlərin müqabilində) qüdrətli və qalib, (itaətkarlara .140
.qarşı) mehribandır

.Səmud qövmü də Allahın bütün peyğəmbərlərini təkzib etdi .141

O zaman onların (qəbilə) qardaşları Saleh onlara dedi: «Məgər (şirk və küfrdən) .142
«?çəkinmirsiniz

.«Həqiqətən, mən sizin üçün etibar olunası bir peyğəmbərəm» .143

!«Belə isə, Allahdan qorxun və mənə itaət edin» .144

Mən buna (risalətə) görə sizdən heç bir muzd istəmirəm. Mənim muzdum yalnız» .145
«.aləmlərin Rəbbinin öhdəsinədir

Güman edirsiniz ki,) burda olanların içində (şəxsi mühitdə və dünyəvi yaşayışda) əmin)» .146
!?amanlıqla başlı–başına buraxılacaqsınız

!?Bağlar və çeşmələr içində .147

«!?(Əkinlər və nizamlı, nazik və lətif çiçəkləri olan xurma ağacları (içində .148

«!?Məharətlə və təkəbbürlə dağlardan evlər yonub düzəldirsiniz» .149

.«Nəhayət, Allahdan qorxun və mənə itaət edin» .150

.«İsraf edənlərin (həddini aşanların) əmrinə tabe olmayın» .151

.«O kəslər ki, yer üzündə fəsad törədər və (heç vaxt) islah etməklə məşğul olmazlar» .152

.«Dedilər: «Həqiqətən, sən cadu olunmuşlardansan .153

Sən yalnız bizim kimi bir insansan. Əgər doğru danışanlardansansa, bir ayə və möcüzə» .154
.«gətir

Sonra, Salehin duası ilə dağdan dişi bir dəvə çıxdı və Saleh) dedi: «Bu dişi bir dəvədir. (Bu) .155
.«bulağın) suyundan bir pay onunkudur və müəyyən bir günün payı da sizinkidir

Ona heç bir ziyan yetirməyin ki, Böyük günün əzabı sizi yaxalayar» (dünyada hamılıqla» .156

.(əzab və ya Qiyamət əzabı

.Amma onlar) dəvəni tutub kəsdilər, sonra isə peşman oldular) .157

Beləliklə, (vəd olunmuş) əzab onları yaxaladı. Həqiqətən, bunda (bu hekayətdə Allahın .158
.qüdrət və qəzəbinə dair) bir nişanə (ibrət) vardır. nların əksəriyyəti haqqa iman gətirən deyildi

.Həqiqətən, sənin Rəbbin (tüğyankarlara qarşı) qüdrətli və qalib (itaətkarlarla) mehribandır .159

.Lutun qövmü də Allahın peyğəmbərlərini təkzib etdi .160

«!?O zaman (qəbilə) qardaşları Lut onlara dedi: «(Bu şirk və küfrünüzdən) çəkinmirsinizmi .161

.«Həqiqətən, mən sizin üçün etibar ediləsi bir peyğəmbərəm» .162

.«Odur ki, Allahdan qorxun və mənə itaət edin» .163

Mən bunun (risalətin) müqabilində sizdən heç bir muzd istəmirəm, mənim muzdum» .164
«.yalnız aləmlərin Rəbbinin öhdəsinədir

«!?Siz bu dünyadakı insanlardan (yalnız) erkəklərləmi yaxınlıq edirsiniz» .165

Və Rəbbinizin sizin üçün yaratdığı zövcələrinizi tərk edirsiniz?! (Günahınız kiçik deyil). Siz» .166
«.(xilqət və fitrət yolundan, şəriət çərçivəsindən) həddi aşan tayfasınız

Onlar) dedilər: «Ey Lut, əgər (bu sözlərindən) əl çəkməsən, mütləq sürgün olunanlardan) .167
«!olacaqsan

.«Lut) dedi: «Şübhəsiz, mən sizin bu əməlinizlə düşmən olanlardanam) .168

.«Ey Rəbbim, mənə və ailəmə bunların gördüyündən (əməlin cəzasından) nicat ver» .169

.Sonra ona və bütün ailəsinə nicat verdik .170

Yalnız (vəd olunmuş əzabda) qalanlardan olan qoca bir arvaddan (Lutun zövcəsindən) .171
.başqa

.Sonra da o birilərini məhv etdik .172

Onların başlarına (daşdan) bir yağış yağdırdıq. (Xəbərdarlığa əhəmiyyət verməyən) .173
!qorxudulanların yağışı pis bir yağış idi

Həqiqətən, bunda (bu hekayətdə Allahın qüdrət və qəzəbinə dair) bir nişanə (ibrət) var və .174
.onların əksəriyyəti Haqqa iman gətirən deyildi

.Həqiqətən, sənin Rəbbin (tüğyankarlara qarşı) qüdrətli və qalib, (itaətkarlarla) mehribandır .175

.Əykə» camaatı da Allahın bütün peyğəmbərlərini təkzib etdi» .176

«!?O zaman Şüeyb onlara dedi: «(küfr və şirkinizdən) çəkinmirsinizmi .177

.«Həqiqətən, mən sizin üçün etibar ediləsi bir peyğəmbərəm» .178

.«Odur ki, Allahdan qorxun və mənə itaət edin» .179

Mən bunun (bu risalətin) müqabilində sizdən heç bir muzd istəmirəm, mənim muzdum» .180
«.yalnız aləmlərin Rəbbinin öhdəsinədir

Alış-veriş zamanı) tərəzi qabını dolu verin (ölçüdə düz olun). Ziyan vuranlardan)» .181
.«olmayın

.«Düzgün tərəzi ilə çəkin» .182

.«İnsanların mallarını əskik verməyin və yer üzündə fəsad törədən hərəkət etməyin» .183

.«Sizi və sizdən öncəki qövmləri yaradandan qorxun» .184

.Onlar): «Həqiqətən, sən cadu olunmuşlardansan»–dedilər) .185

«.Sən yalnız bizim kimi bir insansan. Həqiqətən, biz səni yalançılardan hesab edirik» .186

Və istehza məqsədilə dedilər:) «Əgər doğru danışanlardansansa, onda göyün parçalarını) .187
.«üstümüzə endir

Şüeyb) dedi: «Mənim Rəbbim sizin nə etdiyinizi daha yaxşı bilir (Əməlinizin cəzası daş,) .188
.«(yaxud başqa bir şey olduğunu daha yaxşı bilir

Beləliklə, onu (Şüeybi) təkzib etdilər və buludlu günün əzabı onları yaxaladı (başlarına od .189
.ələyən alovsaçan buludun kölgəsində idilər), Həqiqətən, o, böyük bir günün əzabı idi

Həqiqətən, bunda (bu hekayətdə Allahın qüdrət və qəzəbinə dair) bir nişanə (ibrət) vardır. .190
.Onların əksəriyyəti Haqqa iman gətirən deyildi

Həqiqətən, sənin Rəbbin (tüğyankarlara qarşı) qüdrətli və qalib və (itaətkarlarla) .191
.mehribandır

Şübhəsiz bu (Qur’an) aləmlərin Rəbbinin nazil etdiyidir (Onun əzəli elmindən Lövhi- .192
.(Məhfuza və oradan da Cəbrailin (Ruhul - Əminin) hafizəsinə nazil olmuşdur

,Ruhul-əmin (Cəbrail) onu endirdi .193

,(Qorxudanlardan (Peyğəmbərlərdən) olasan deyə, sənin qəlbinə (nazil etdi .194

.(Onu) açıq-aydın ərəb dilində (nazil etdi) .195

Həqiqətən, də, bu (kitabın adı, vəzifəsi və gətirənin adı) keçmişdəkilərin (əvvəlki .196
.peyğəmbərlərin) kitablarında gəlmişdir

Məgər Bəni-İsrail alimlərinin bundan (bu kitabdan və onun vəsflərindən tamamilə) .197
?xəbərdar olmaları onlar (Məkkə müşrikləri) üçün sübut və nişanə deyilmi

Əgər bunu (bu kitabı bütünlüklə) bəzi əcəmlərə (ərəb olmayanlara başqa bir dildə) nazil .198
;etsəydik

Qur’anı (Peyğəmbər, ya o əcəm) onlara oxusaydı, əsla ona iman gətirməzdilər (və .199
(«?deyərdilər: «Əcəm dilində olan Qur’an hara, ərəb milləti hara

Biz onu belə (xoşagəlməz və batil düşündükləri halda Məkkə) günahkarlarının qəlblərinə .200
.beləcə yeritdik

.Ölüm, Bərzəx ya Qiyamətin) ağrılı əzabını görməyincə ona iman gətirməyəcəklər) .201

.Bu əzab) onlara qəflətən, özləri də bilmədən gələr) .202

«?Sonra (təəssüf və peşmançılıqla) deyərlər: «Görəsən bizə bir möhlət veriləcəkmi .203

«!?Belə olduqda, (məzəmmət məqsədilə deyilər:) «Bizim əzabımızamı tələsirdilər .204

;Ya Peyğəmbər!) xəbər ver, əgər onları illərlə (dünya həyatından) bəhrələndirsək) .205

;Sonra da vəd olunduqları (əzab) onlara yetişsə .206

?Onlara verilmiş olan nemətlər (Allahın əzabından) nəyi onlardan dəf edə bilər .207

Biz (cəza olaraq) qorxudanlar (peyğəmbərlər, yaxud onların canişinləri) olmayan heç bir .208
;cəmiyyəti məhv etmədik

Cəmiyyətə) bir öyüd – nəsihət olsun deyə, (dəvət kamil və dəlil-sübut tamam olsun deyə,) .209
!əks təqdirdə onları məhv etmək zülm olardı). Biz heç vaxt zülmkar olmamışıq

.Bunu (Qur'anı) əsla şeytanlar (Bizim Peyğəmbərimizə) nazil etməmişlər .210

Və (bu əzəmətli və müqəddəs iş) onlara (zatən şər və fəsad mənbəyi olan şeytanlara) layiq .211
deyildir və (bu işin müqəddəsliyinə, öz zatlarının da xəbisliyinə görə) onların buna qüdrətləri
.çatmaz

Şübhəsiz, (göyün qapıları üzlərinə qapalı olduğuna görə) onlar (Allah kəlamını) eşitməkdən .212
.kənarlaşdırılmışlar

.Allahla yanaşı başqa bir tanrı çağırma ki, əzaba düçar edilənlərdən olarsan .213

.Və (əvvəlcə) yaxın qohumlarını qorxut və xəbərdarlıq et .214

Və öz mehr (məhəbbət) və təvazökarlıq qanadını möminlərdən sənə tabe olan hər bir .215
.kəsin üzərinə endir; cəzbedici çətirini onların başları üzərində aç

Əgər sənə itaətsizlik etsələr, de: «Mən sizin etdiklərinizdən (sizin çirkin və batil .216
.«işlərinizdən) uzağam

.Və o qadir, qalib və mehriban (Allaha) təvəkkül et .217

.O Allaha ki, səni (namaza, ya hər hansı bir xeyir işə) duranda, görür .218

.(Və həmçinin səcdə edənlər arasında (qiyam, rüku və səcdə) hərəkətlərini (görür .219

.Çünki, O eşidən və biləndir .220

?Şeytanların kimə (o əsrin kahinləri kimi) nazil olduğunu sizə xəbər verimmi .221

.Onlar) hər bir yalançı (böhtançı) və günahkara nazil olarlar) .222

.Uca məqamdan) eşitdiklərini onlara təlqin edərlər və əksəriyyəti yalançıdır) .223

.(Peyğəmbər şair deyildir) şairlərə yalnız azğınlar tabe olarlar (uyarlar) .224

?Məgər görmədinmi ki, onlar hər bir vadidə (xəyallar aləmində) dərbədərdirlər .225

!?Və onlar özləri etmədikləri şeyləri deyirlər .226

Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən, zülmə uğradıqdan (Peyğəmbər .227 və İslam əleyhinə həcv eşitdikdən) sonra (onların rəddi üçün şerlər yazmaqla) intiqam .alanlardan başqa! Zülm edənlər tezliklə biləcəklər ki, necə bir dönüş yerinə qaytarılacaqlar